Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Möcüzələr ölkəsinin yaradıcısı

İngilis yazıçısı Luis Kerrollun anadan olmasının 185 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı - 2017**

**Tərtibçi:** **Təranə Hacıyeva**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**“Möcüzələr ölkəsinin yaradıcısı”** metodik vəsait / tərt.ed.:T.Hacıyeva; red. S.Məlikzadə; ixt. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. - Bakı, 2017. - 23 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

İngilis yazıçısı, riyaziyyatçısı, filosofu Luis Kerroll (Çarlz Lyutvic Docson) 27 yanvar 1832-ci ildə İngiltərənin Çeşir qraflığında, Darsberi kəndində anadan olmuşdur. Luis Kerrol məşhur “Alisa möcüzələr ölkəsində” və “Alisa güzgü arxasında” əsərlərinin müəllifidir. Dünya uşaq ədəbiyyatında Luis Kerrolun xüsusi yeri vardır. Onun əsərləri uşaqlar üçün nəzərdə tutulsa da, bu əsərlərdə dünyanı dərketmənin dərin fəlsəfi və məntiqi sualları ilə qarşılaşırıq. Riyaziyyat sahəsində bir çox sanballı əsərlərin müəllifi olan Luis Kerrol məntiq üzrə çox mürəkkəb tapşırıqların həllində də xüsusi ustalıq göstərmişdir. Kerrollun nağılları XIX əsrin ortalarında İngiltərədə geniş yayılmış ədəbi nağıllara aiddir. Xalq yaradıcılığına çox böyük maraq göstərən Kerrol əsərlərini də nağıl üslubunda yazmışdır. Bu əsərlər ənənəvi nağıllardan çox fərqlənsə də, onlarda atalar sözləri və deyimlərdəki qədim obrazlar canlanmışdır. Teatrı çox sevən yazıçının nağıllarında onun teatrı çox dərindən bilməsi də hiss olunur. Kerrollun nağıllarındakı daha bir vacib səviyyə elmi səviyyədir. Elmi qat Kerrollun nağıllarında özünü müxtəlif dərinliklərdə göstərir. Belə ki, onun nağıllarında yalnız bədii deyil, eyni zamanda elmi təfəkkür özünü büruzə verir. Buna görə də məntiq alimləri, riyaziyyatçılar, fiziklər, filosoflar, psixoloqlar “Alisa”da elmi düşüncələr və interpretasiyalar üçün zəngin materiallar görürlər.

Kerrollun qoyduğu ənənələr hal-hazırda ingilisdilli elmi-fantastik ədəbiyyatda, qrotesk satirasında və eyni zamanda müasir poeziyada ən yaxşı formada özünü göstərir.

Oksforddan olan təvazökar və qəribə riyaziyyatçının yazdığı nağıl müasir oxuculara öz məzmununun müxtəlif səviyyələrini açmaqda davam edir.

Bu il görkəmli yazıçının anadan olmasının 185 ili tamam olur. Bu əlamətdar gün bütün ədəbiyyatsevərlər tərəfindən qeyd olunacaqdır. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da bununla bağlı tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxananın elmi-metodika şöbəsi keçiriləcək tədbirlərlə bağlı vəsait hazırlamışdır.

## Həyat və yaradıcılığı

İngilis yazıçısı, riyaziyyatçısı, məntiqçisi, filosofu Luis Kerroll (əsl adı Çarlz Lyutvic Docson)1832-ci il yanvarın 27-də İngiltərənin Çeşir qraflığında anadan olmuşdur. Evdə təhsil almağa başlayan balaca Luisin müəllimi elə atası olur. Anadangəlmə solaxay olan Luisə sol əllə yazmağı qadağan edirlər. Bəzilərinin fikrincə, bununla onun psixikasını zədələmişlər (o, kəkələməyə başlamışdır). O, 1850-ci ildə kollecə, sonrakı il isə Oksforda daxil olur. Riyaziyyat sahəsində çox bacarıqlı olan L.Kerroll 26 il ərzində bu sahə üzrə mühazirələr oxumuşdur.

Luis Kerroll erkən yaşlarında rəssam olmağı arzu edirdi. O, çoxlu rəsmlər çəkirdi və hətta öz əl işlərini "Tayms" qəzetinə yumoristik əlavə"yə göndərir. Lakin onun rəsmləri dərc olunmur və bundan sonra gənc Kerrol fotoqrafiyaya həvəs göstərir. O, bu sahədə çox yüksək nailiyyətlər əldə edir. Mütəxəssislərin fikirlərinə görə o, XIX əsrin ən yaxşı fotoqraflarından biri olmuşdur.

Kerroll uşaqları çox sevirdi. Kəkələməsi, özünə qapanmış olması onun özünü böyüklərdən çox, uşaqların arasında yaxşı hiss etməsinə səbəb olurdu. Onun məşhur əsərləri məhz uşaqlarla olan ünsiyyəti nəticəsində ərsəyə gəlmişdir.

L.Kerroll elə kollecdə oxuduğu zaman yazıçılıq karyerasına başlamışdır. Şeir və kiçik hekayələrini Luis Kerrol

adı ilə müxtəlif jurnallara göndərən gənc yazıçı tədricən tanınmağa başlayır. Onun əsərləri 1854-cü ildən başlayaraq "Komik vaxtlar" və "Qatar" kimi ciddi ingilis nəşrlərində dərc olunmağa başlayır.

1856-cı ildə kollecə Henri Liddel adlı yeni dekan təyin olunur, onunla birlikdə arvadı və 5 uşağı da Oksfordda yaşamağa başlayırlar. Uşaqların arasında 4 yaşlı Alisa da vardı. Bu kiçik qız, yazıçının yeni əsərinin qəhrəmanının prototipi olur. Yazıçı 1864-cü ildə özünün məşhur "Alisa möcüzələr ölkəsində" ("Alice's Adventures in Wonderland") əsərini qələmə alır. Əsərin ilk nəşri 27 iyun 1865-ci ildə oxuculara təqdim olunur. 1871-ci ilin dekabrında isə oxucular əsərin ikinci hissəsi – "Güzgünün arxasında və Alisa orda nə görmüşdü" ("Through the Looking-glass and What Alice Found There") əsəri ilə tanış olurlar. Alisa haqqında ilk kitabın üç variantının olduğu bilinir. Bu əsər haqqında çox danışılıb, müzakirələr aparılıb. Mütəxəssislərin əsas ortaq fikri ondan ibarətdir ki, Alisa haqqında əsər iki qavrama səviyyəsi üçün nəzərdə tutulub: böyüklər və uşaqlar. Bu əsərlər ingilis ədəbi nağılının inkişafının ironik xəttinə daha yaxındır. Bu xəttin əsas nümayəndələri Tekkerey və Dikkens olmuşlar. Bu əsərlər folklor ənənəsinin dərindən mənimsənilməsinin nəticəsi kimi meydana çıxmışlar. Bu əsərlərdə qədim obrazlar canlanır. Alisa ilə bağlı əhvalatlarda yazıçının teatrı dərindən bildiyi də hiss olunur. Bu əsərlərdə ən əsas səviyyələrdən biri də elmi səviyyədir. Kerrollun nağıllarında həm bədii, həm də elmi təfəkkür tipi özünü göstərir. Buna görə də məntiq alimləri, riyaziyyatçılar, fiziklər, filosoflar, psixoloqlar bu əsərdə elmi düşüncələr və interpretasiyalar üçün çox zəngin material tapa bilirlər.

L.Kerrolun riyazi məntiq sahəsində yazdığı əsərləri də çox dəyərlidir.

Görkəmli yazıçı və alim Luis Kerrol 1898-ci il yanvarın 14-də Surrey qraflığında vəfat etmiş, orada da dəfn olunmuşdur.

## Yubiley tədbirlərinin keçirilməsi

Bu il məşhur "Alisa möcüzələr ölkəsində" və "Alisa güzgü arxasında" əsərlərinin və bir çox başqa əsərlərin müəllifi, ingilis yazıçısı Luis Kerrollun anadan olmasının 185 ili tamam olur. Bu yubiley bir çox yerlərdə olduğu kimi, ölkəmizdə də qeyd olunacaqdır. F.Köçərli adına Respublika Uşaq Kitabxanası yubiley tədbirlərinin keçirilməsi ilə bağlı metodiki vəsait hazırlamışdır. Yubiley tədbirlərini kitab sərgisinin qurulması ilə başlamaq lazımdır. Sərgi aşağıdakı başlıqlardan biri ilə qurula bilər: "Luis Kerroll - 185"; "Möcüzələr ölkəsinin yaradıcısı"; "Hər dövrdə sevilərək oxunan yazıçı"; "Reallıq və fantastikanın vəhdətini yaradan yazar" və s.

"Möcüzələr ölkəsinin yaradıcısı" adlı sərginin nümunəsini təqdim edirik:

1. Başlıq;
2. Luis Kerrollun portreti;
3. Kitablarının nümayişi;
4. Görkəmli şəxsiyyətlərin Luis Kerroll haqqında fikirləri.

## Görkəmli şəxsiyyətlərin Luis Kerroll haqqında fikirləri:

“Kerroll bütün insan reallıqlarını struktur oyuna çevirir və siyasətçi və linqvist olaraq, qarışıq insan münasibətlərini ironik “Məntiq oyunu”nda toplayır. Bunun hansı oyun olması önəmli deyil, istər kart (“Alisa möcüzələr ölkəsində”), istər şahmat (“Alisa güzgü arxasında”), ov (“Snark ovu”), rəqəmlər (“Riyazi kuryozlar”) və yaxud söz (“Şifahi tapmacaya dubletlər”) – bütün hallarda Kerroll sözlərdən ibarət ciddi qapalı sistem qurur, həm də bu sistem mütləq şəkildə rasional olaraq qalır.

**İ.Qalinskaya**
*rus ədəbiyyatşünası*

Kerroll, onun əsərlərinin mətninin yüngüllüyü və incəliyindən vəcdə gələn, lakin onu ciddi qəbul etməyən tənqidçilərin sentimental fikirlərindən daha artığına layidqir.

**Edmund Uilson**
*Amerika ədəbiyyatşünası*

Kerrollun bütün “mənasızlığında” hansısa bir sirr gizlənmişdir və elm bu sirrin açılmasına biganə yanaşmır.

**S.Q.Qellerşteyn**
*bioloq və psixoloq*

Yazıçının özünün müdrik kəlamlarından da istifadə etmək olar. Aşağıda belə kəlamlardan bəzilərini təqdim edirik:

- Məna haqqında düşün, sözlər özləri yaranacaq.
- Əgər dünyada hər şey mənasızdırsa, hər hansı mənanı düşünüb tapmağa nə mane olur?
- Danışmağı biz bacarırıq, amma kiminlə danışasan?
- Zaman onun öldürülməsini sevmir.
- Yalnız yerində qalmaq üçün bütün gücünlə qaçmalısan, harasa gedib çıxmaq üçün isə, minimum iki dəfə daha tez qaçmalısan.
- Əgər sənin üçün hara getməyinin fərqi yoxdursa, hansı tərəfə getməyinin də fərqi olmamalıdır.
- Sən həmişə “heç nə”dən daha çoxunu götürə bilərsən.
- Müxtəliflik olsun deyə ağıllı birinə rast gəlmək yaxşı olardı.
- Nəyisə izah etməyin ən yaxşı yolu, onu özünün etməyidir.

## Kitab sərgisi
















Kitabxanada keçirilən yubiley tədbirlərinin sırasında ədəbi-bədii gecələr önəmli yer tutur. Bu cür tədbirlərdə iştirakçılar həm ədibin həyat və yaradıcılığı ilə tanış olur, həm də əsərlərindən hazırlanmış parçalara, bədii qiraətə tamaşa edirlər. Luis Kerrollun 185 illiyi münasibətilə keçiriləcək ədəbi-bədii gecənin ssenarisini sizlərə təqdim edirik.

**I Aparıcı:** Bu gün məşhur ingilis yazıçısı, Luis Kerrol adı ilə tanınmış Çarlz Lyutvic Docsonun anadan olmasının 185 ili tamam olub. İngilis riyaziyyatçısı, filosofu, məntiq bilicisi,

fotoqrafı və əlbəttə ki, yazıçısı Luis Kerroll – Möcüzələr ölkəsinə, daha sonra isə güzgünün arxasına düşən Alisa adlı qız haqqında gözəl, maraqlı kitabların müəllifi, dünya ədəbiyyatına bəxş etdiyi bu əsərlərlə ədəbiyyat tarixinə adını həkk etmişdir.

Məşhur əsərlərin müəllifi, 27 yanvar 1832-ci ildə İngiltərədə, Çeşir qraflığında, Darsberidə ingilis keşişin çoxuşaqlı ailəsində anadan olmuşdur. Oksford universitetinin Krayst Çerç kilsə kollecini riyaziyyat və klassik dillər üzrə bitirmiş, 1854-cü ildə riyaziyyat üzrə bakalavr dərəcəsi almışdır. Bir ildən sonra ona doğma universitetində riyaziyyatdan mühazirələr oxumaq təklif olunur və o, 26 il müddətində bu işdə çalışır.

Gənc yazıçı 1865-ci ildə Luis Kerroll təxəllüsünü götürmüşdür. Həmin il onun ilk poeması "Tənhalıq" məhz bu təxəllüslə işıq üzü görür. Luis Kerroll təxəllüsü yazıçının həqiqi adından götürülmüşdür: Lyutvic – Lyudovikus – Luis və Çarlz – Karolyus – Kerrol. Həmin vaxtdan o, elmi əsərlərini öz adı ilə, bədii əsərlərini isə təxəllüsü ilə yazmışdır.

**II Aparıcı:** Özündə həm riyaziyyatçını, həm də yazıçını birləşdirən bu görkəmli şəxsiyyətin riyaziyyatdan daha çox məntiq sahəsindəki əsərləri böyük dəyərə malikdir. Onun riyazi məntiq sahəsindəki nailiyyətləri öz dövrünü çox-çox qabaqlamışdır. O, məntiqi tapşırıqların həllinin qrafik texnikasını işləyib hazırlamışdır. Bu həll üsulu riyaziyyatçı, mexanik, fizik və astronom Leonard Eylerin və ingilis məntiqşünası Con Vennin diaqrammalarından daha rahatdır. O, özünün riyazi məntiq sahəsindəki nailiyyətlərini iki cildlik "Simvolik məntiq" və uşaqlar üçün sadələşdirilmiş variantda "Məntiq oyunu"nda toplamışdır.

**I Aparıcı:** Yazıçı kimi Kerrollun üslubu onun ədəbi istedadı, riyaziyyatçı təfəkkürü və iti məntiqinin vəhdətində təcəlli edir. Yazıçının ən önəmli əsərləri onun Alisa haqqında iki

nağılı -"Alisa möcüzələr ölkəsində" (1865) və "Alisa güzgü arxasında" (1871) hesab olunur. Cəsarətli dil eksperimentləri, incə məntiqi və fəlsəfi məsələlərə toxunulması, iştirakçı şəxslərin sözlərinin və hadisələrin çoxmənalılığı Kerrollun əsərlərini böyüklərin də sevərək oxuduğu kitablara çevirir.

Kerrolun unikal üslubunun xüsusiyyətləri yazıçının digər əsərlərində də aydın şəkildə hiss olunur: "Silviya və Bruno", "Snark ovu", "Gecəyarı tapşırıqları", "Düyünlərin əhvalatı", "Tısbağa Axillə nə dedi", "Allen Braun və Karr", "Evklid və onun müasir rəqibləri", uşaqlara məktublar və s.

**II Aparıcı:** 1856-cı ildə kollecə yeni dekan təyin olunur. O, özü ilə arvadı və dörd uşaqdan ibarət ailəsini də gətirmişdi. Uşaqların arasında 4 yaşlı Alisa Liddell də var idi. Luis dekanın ailəsi ilə dostluq edirdi və uşaqları tez-tez özü ilə qayıqla gəzintiyə aparırdı. 4 iyul 1864-cü ildə, belə gəzintilərin birində balaca Alisa Kerrolldan həmişə gəzinti zamanı yazıçının elə yoldaca danışdığı nağıllardan yenisini danışmasını xahiş edir. Məhz Alisa Liddel "Alisa möcüzələr ölkəsində" və "Alisa güzgü arxasında" əsərlərinin baş qəhrəmanının prototipidir. Alisanın xahişi ilə Kerroll nağılı yazıya alır. 1863-cü ildə əlyazması nəşriyyata gedib çıxır, burada müəllifə dərhal əsərin çap olunması təklif olunur. 1865-ci ildə "Alisa möcüzələr ölkəsində" əsərinin ilk nəşri ser Con Tennielin illüstrasiyaları ilə işıq üzü görür və bununla da Luis Kerrolun adı dünya ədəbiyyat tarixinə əbədi yazılır.

**I Aparıcı:** Kitab həm uşaqlar, həm də böyüklər arasında çox böyük uğur qazanır. Əsəri bir neçə il dalbadal təkrar nəşr edirlər və bu, yazıçıya stabil gəlir gətirir.

1871-ci ildə Alisa haqqında ikinci kitab – "Alisa güzgünün arxasında" işıq üzü görür və o da tezliklə ilk kitab kimi klassikaya çevrilir.

1876-cı ildə yazıçının "Snark ovu" fantastik poeması işıq üzü görür və bu əsər də böyük uğur qazanır.

Görkəmli yazıçı fotoqrafiya sənətinə çox böyük maraq göstərmiş və bu sahədə böyük uğurlar əldə etmişdir. Onun çəkdiyi fotoqrafiyaların çox hissəsi itsə də, portretlərin bir hissəsi Milli Portret Qalereyasında saxlanılır.

L.Kerroll 1881-ci ildə müəllimlikdən uzaqlaşır və ömrünün sonuna qədər Oksfordda yaşamağa davam edir. 1889-cu və 1893-cü illərdə yazıçı özünün sonuncu romanı "Silviya və Bruno"nun iki hissəsini çap etdirir, lakin əsər böyük uğur qazanmır.

Luis Kerroll 14 yanvar 1898-ci ildə 65 yaşında pnevmoniya xəstəliyindən Gildfordda bacısının evində dünyasını dəyişir və elə orada da dəfn olunur.

**II Aparıcı:** Yazıçının Alisa haqqında əsərləri çap olunduğu gündən oxucuların sevdiyi əsərlər siyahısında qərarlaşıb. Bu hal dəyişməz olaraq qalır. Əsərlər ilk dəfə 1903-cü ildə ekranlaşdırılmışdır. Bundan sonra dəfələrlə ekranlaşdırılan "Alisa möcüzələr ölkəsində" və "Alisa güzgünün arxasında" nağıllarının əsasında 1933-cü ildə Hollivudda ulduzlar Kerri Qrant və Harri Kuperin iştirakı ilə film çəkilir. 1951-ci ildə "Disney" studiyası əsər əsasında cizgi filmini təqdim edir. 1999-cu ildə yazıçının əsərlərinin motivləri əsasında "Barmaqlot" rok-operası tamaşaya qoyulmuşdur.

**I Aparıcı:** İndi isə Luis Kerroll haqqında maraqlı faktları sizlərlə paylaşırıq.

- Luis Kerroll sayəsində indi bir çox kitabların supercildi vardır. Onun kitabı mətbəədən kağıza bükülmüş vəziyyətdə çıxarkən, yazıçı naşirə belə bir müraciət etmişdir: "Bükülünün üzərində müəllifi və adı yazın, onda kitabı ondan çıxarmaq lazım gəlməyəcək."

- Kerroll supercilddən əlavə bilyard üçün dairəvi stolu da icad etmişdir. Lakin buna görə patenti 1964-cü ildə Edvin Robinson almışdır.
- Səyahətçilər üçün şahmatı da L.Kerroll icad etmişdir. Bu şahmat dəstində fiqurlar lövhədəki xüsusi çıxıntı üzərində dayanır.
- Müəllifin özünün Niktoqraf adlandırdığı qaranlıqda yazmaq üçün qurğu, çoxlu oyuncaqlar, yapışqan əvəzləyicisi və s. də məhz Luis Kerroll tərəfindən icad olunmuşdur.
- "Snark ovu" nonsens ədəbiyyatının parlaq nümunəsidir. Kerrollun özü poemaya zarafat, parodiya kimi baxmışdır, buna görə də əsərin işıq üzü görməsi üçün ən uyğun vaxt kimi aprelin 1-ni nəzərdə tutmuşdur. 1876-cı ilin məhz həmin günü də kitab işıq üzü görmüşdür.
- "Alisa güzgü arxasında" əsərinin personajlarının prototipləri arasında həmin dövrün məşhur siyasətçiləri də var. Şir və Kərgədan – Qladston və Dizraelidir.
- Alisa güzgü arxasına səyahət edərkən altı çayı keçməli olur. Piyada, kraliça olmaq üçün bu qədər horizontalı keçməlidir.
- Kerroll, uydurma məxluq Snarkı "snake" – ilan və "shark" – "köpəkbalığı" sözlərini birləşdirərək yaratmışdır.
- Dəli Şlyapaçı obrazı "şlyapaçı kimi dəli" ingilis ifadəsindən yaranmışdır. Bəzi tədqiqatçılar belə hesab edirlər ki, məsəl real vəziyyəti əks etdirir, belə ki, XIX əsrdə fetr şlyapaların hazırlanması zamanı civə və qurğuşundan istifadə olunurdu. Onların

təhlükəli buxarlarından zəhərlənmə bir çox hallarda şlyapa ustalarının dəli olması ilə nəticələnirdi.

- "Alisa möcüzələr ölkəsində" Böyük Britaniyanın Mədəniyyət, idman və mətbuat nazirliyinin tərtib etdiyi on iki "sırf ingilis" hadisə və əşyalarının siyahısına daxildir.
- "Alisa möcüzələr ölkəsində sindromu" - istiqamət itirmə ilə bağlı nevroloji vəziyyət belə adlanır. Bu zaman insanın görmə qavrayışı elə pozulur ki, subyekt obyektləri həqiqətdə olduğundan kiçik ölçüdə qavrayır, obyekt isə həm uzaq, həm də fövqəladə dərəcədə yaxın görünür.
- Luis Kerroll bütün ömrü boyu (1832-1898) Alisa haqqında kitab da daxil olmaqla iyirmidən çox əsər yazmışdır.

Kitabxanada keçiriləcək tədbirlərdən biri də icmaldır. Bu tədbir zamanı yazıçının əsərlərindən biri haqqında geniş məlumat verilir. Luis Kerrollun 185 illik yubileyi ilə əlaqədar onun ən məşhur əsərlərindən olan "Alisa möcüzələr ölkəsində" əsərinin icmalının verilməsi məqsədəuyğun olar. Bunun üçün tədbirin keçiriləcəyi zalda yazıçının portreti qoyulur, kitab sərgisi təşkil olunur. Daha sonra təcrübəli kitabxanaçılardan biri "Alisa möcüzələr ölkəsində" kitabının icmalına başlayır.

**Kitabxanaçı:** Hörmətli tədbir iştirakçıları! Bu gün sizləri görkəmli ingilis yazıçısı Luis Kerrollun 185 illik yubileyi münasibətilə onun ən məşhur əsəri "Alisa möcüzələr ölkəsində" əsərinin icmalı ilə tanış edəcəyik.

"Alisa möcüzələr ölkəsində" nağılını yazıçı 1865-ci ildə oxuculara təqdim etmişdir. Bu əsərdə Alisa adlı balaca qız dovşan yuvasında qəribə antropomorf məxluqların yaşadığı təxəyyül dünyasına düşür. Əsərin ikinci hissəsi "Alisa güzgü arxasında" – 1871-ci ildə işıq üzü görür. Kitabın qəhrəmanı,

Alisa adlı qız, Möcüzələr ölkəsinə səyahətini özü üçün də gözlənilmədən başlayır: istidən və bekarçılıqdan bezmiş Alisanın gözünə Dovşan görünür. Bu, özü-özlüyündə heç təəccüblü deyil. Lakin Dovşan nəinki danışırdı, həm də cib saatına malik idi. Dovşan harasa yaman tələsirdi. Alisa maraqdan alışıb yanaraq onun arxasınca yuvaya girir və özünü sürətlə yerin altına getdiyi şaquli tuneldə görür. Lakin bu dünyada hər şey sona çatır və Alisanın da yıxılması xoşbəxt sonluqla başa çatdı: o, çoxlu qapıları olan zala gəlib çıxdı. Dovşan itdi, əvəzində Alisa çoxlu qapılar və stolun üzərində balaca qızıl açar gördü. Alisa bu açarla çox gözəl bir bağın qapısını açdı. Lakin bağa keçmək mümkün deyil: çünki Alisa çox böyük idi. Lakin o dərhal üzərində "Məni iç!" yazılmış flakon gördü. Alisa, ona məxsus ehtiyatlılığa baxmayaraq, flakonu başına çəkir və o dərəcədə balacalaşmağa başlayır ki, artıq qorxur. Nə yaxşı ki, yaxınlıqda üzərində "Məni ye!" yazılmış pirojna var idi. Onu yeyən Alisa o dərəcədə uzanır ki, hardasa aşağıda uzaqlarda qalmış ayaqları ilə vidalaşır. Burada hər şey çox qəribə və gözlənilməz idi. Hətta vurma cədvəli və çoxdan əzbərlədiyi şeirlər belə onun ağzından baş-ayaq çıxır: qız özü-özünü tanımırdı və hətta ona elə gəlirdi ki, o özü deyil, tamam başqa qızdır: o qüssələndiyindən və bitib-tükənməyən qəribəliklərdən ağlamağa başlayır. O qədər ağlayır ki, göl əmələ gəlir və özü də az qala bu göldə boğulacaqdı. Aydın olur ki, bu göz yaşı gölündə boğulmaqda olan təkcə o deyil, yaxınlıqda bir siçan da donquldanır. Nəzakətli Alisa onunla söhbətə girişir, lakin təəssüf ki, o, söhbətə pişiklər haqqında danışmaqla başlayır, çünki evdə Alisanın sevimli pişiyi qalmışdı. Alisanın daşürəkliliyindən özünü təhqir olunmuş hesab edən Siçan aradan çıxır. Yenidən peyda olan Dovşan Alisanı hansısa xidmətçi qız kimi əlcəklərini və yelpiyini gətirməsi üçün öz evinə yollayır. Çünki özü Hersoginyanın yanına getməlidir.

Alisa mübahisə etmir və Dovşanın evinə girir. Burada o, marağından başqa bir flakondakı mayeni içir və o dərəcədə böyüyür ki, az qalır evi darmadağın etsin. Yaxşı ki, onu pirojnalara çevrilən daşlarla vururlar və o, yenidən balacalaşaraq oradan qaçır.

Alisa ot cəngəlliklərində uzun müddət sərgərdan dolaşır. Bu zaman balaca küçüyün hücumuna məruz qalır. Alisa birtəhər qaçıb canını qurtarır. Nəhayət o, nəhəng göbələyin yanına gəlib çıxır. Göbələyin papağının üzərində ciddi görkəmlə qəlyan çəkən Kəpənəkqurdu əyləşmişdi. Alisa şikayət edərək ona deyir ki, boyu tez-tez dəyişir və özü özünü tanıya bilmir. Lakin Kəpənəkqurdu bu dəyişmələrdə qəribə bir şey görmür və Alisaya qarşı heç bir mərhəmət hissi duymur. İncimiş Alisa göbələkdən bir parça qoparıb götürərək oradan aralanır.

Alisa bir ev görür və burada göbələk onun işinə yarayır: o, göbələkdən bir parça qopararaq çeynəyir, doqquz düym böyüyür və evə yaxınlaşır. Evin kandarında balığa oxşayan bir xidmətçi qurbağaya oxşayan başqa bir xidmətçiyə Kraliçaya aparsın deyə Hersoginyanın kroket partiyası üçün dəvətnaməsini verir. Alisa Qurbağa-xidmətçiyə içəri keçmək üçün xeyli müddət izahat verir, lakin onun cavablarından bir şey başa düşməyərək evə daxil olur. O, istiot və tüstüdən nəfəs almağın mümükünsüz olduğu mətbəxə gəlib çıxır. Burada aşpaz qadın sıyıq bişirirdi, yaxınlıqda isə Hersoginya qucağında qışqıraraq ağlayan uşaq tutaraq oturmuşdu; aşpaz qadın iş arasında hər ikisinə tərəf qab-qacaq tolazlaylırdı; bütün bunları isə üzündə istehzalı təbəssümlə pişik müşahidə edirdi. Hersoginya təəccüblənmiş Alisaya başa salır ki, pişik Çeşir pişiyi olduğu üçün gülümsəyir və ümumiyyətlə, bütün pişiklər gülümsəyir. Bundan sonra Hersoginya ağlayan uşağa, Alisaya sanki tanış olan laylanı oxuyur, lakin nədənsə bu nəğmədən Alisanın tükləri ürpəşir. Sonunda Hersoginya uşağın bələyini Alisanın üstünə

atır və o, qəribə, narahat və xortuldayan körpəni evdən çıxarır. Birdən o, təəccüblənərək görür ki, bu, heç də uşaq deyil, donuz balasıdır!

Burada Alisanın qarşısında yenidən Çeşir pişiyi peyda olur və Alisa ondan indi hara getməli olduğunu soruşur. Pişik gülümsəyərək deyir ki, əgər onun üçün hara getməyin fərqi yoxdursa, istədiyi istiqamətdə gedə bilər. O, qıza izah edir ki, bu ölkədə hamı qeyri-normaldır və hətta ağıllı Alisa da bu sübutla mübahisə edə bilmir. Bundan sonra pişik havada asılı qalan təbəssümündən başqa bütünlüklə yoxa çıxır. Pişiyin bu xüsusiyyəti qəddar Toxmaqlı Kraliçanın onun boynunun vurulmasını əmr etdiyi zaman işinə çox yarayırdı: pişik o dəqiqə yox olurdu, havada yalnız onun başı görünürdü. Amma əgər bədən yoxdursa, onun başını necə vurmaq olar? Pişik isə sadəcə gen-bol şəkildə gülümsəyirdi.

Alisa isə bu zaman dəli Mart Dovşanının yanına gedir və ingilislərin çox sevdiyi və adət etdiyi, lakin tamamilə qeyri-adi çay dəstgahına qonaq olur. Dovşan və dəli Şlyapaçı gündə bir və ya iki dəfə deyil, fasiləsiz olaraq çay içməli idilər. Bu, onların Vaxtı öldürdükləri üçün cəzaları idi. Çünki onlar ona heç də qonaqpərvər yanaşmırdılar, onu dolaşdırırdılar və ona gülürdülər. Alisa oradan da ayrılır və yeni macəralardan sonra Kraliça bağına düşə bilir. Burada bağbanlar ağ qızılgülləri qırmızı rəngə boyayırdılar. Bu vaxt kral cütlüyü, Toxmaqlı Kral və Kraliça saray əhlinin – daha kiçik toxmaqlı və kərpicxallı kartların əhatəsində gəlib çıxırlar. Kral və Kraliça ətrafdakılara çox sərt davransalar da və Kraliça demək olar ki, ətrafdakı hər kəsin boynunu vurmağı əmr etsə də, bu Alisanı qorxutmur. Çünki onlar sadəcə kartdırlar, deyə Alisa düşünür.

Alisa Toxmaqlı Valetinin, mahnıda deyildiyi kimi, Kraliçanın bişirdiyi piroqu oğurladığı üçün ittiham olunduğu zalda Möcüzələr ölkəsindən tanıdığı bütün tanışlarını görür.

Qorxmuş şahidlər məhkəmədə necə də qəribə ifadələr verirdilər! Bacarıqsız andlılar necə də hər şeyi qarışdırırdılar. Birdən artıq öz adi ölçülərinə geri dönən Alisanı çağırdılar. Kral və Kraliça onu çaşdırmaq istəsələr də, onların cəhdləri qızın möhkəm məntiqi qarşısında əriyirdi. Alisa ölüm hökmü hədələrinə sakitcə cavab verdi: "Axı siz sadəcə bir dəst oyun kartısınız" – və sehr yox oldu. Alisa həmin çəmənlikdə, bacısının yanında oyanır. Ətrafda adət etdikləri mənzərə var idi, adət olunan səslər eşidilirdi. Deməli, bu yalnız yuxu idi!..

Tədbirin sonunda kitabxanaçı kitab sərgisindəki kitabları nümayiş etdirir.

Kitabxanada keçirilə biləcək çox maraqlı tədbirlərdən biri də sual-cavab gecəsidir. Sual-cavab gecəsində kitabxanaçı oxuculara yazıçı və onun yaradıcılığı ilə bağlı suallar ünvanlayır, oxucular isə bu sualları cavablayırlar.

**Kitabxanaçı:** Yazıçı Luis Kerrollun əsl adı nə idi?

**I Oxucu:** Luis Kerroll adı ilə məşhurlaşan yazıçının əsl adı Çarlz Lyutvic Docsondur.

**Kitabxanaçı:** Luis Kerroll neçənci ildə və harada anadan olmuşdur?

**II Oxucu:** Luis Kerroll 27 yanvar 1832-ci ildə İngiltərənin Çeşir qraflığında, Darsberi kəndində anadan olmuşdur.

**Kitabxanaçı:** Yazıçı harada və hansı ixtisas üzrə təhsil almışdır?

**I Oxucu:** Yazıçı 1850-ci ildə kollecə, sonrakı il isə Oksforda daxil olur. Riyaziyyat üzrə təhsil alan Çarlz Docson 26 il Oksfordda bu sahə üzrə mühazirələr oxuyur. Gələcək yazıçı həm də məntiq mütəxəssisi, ilahiyyatçı, filosof və fotoqraf olmuşdur.

**Kitabxanaçı:** Luis Kerroll ədəbi yaradıcılığa nə zaman başlamışdır?

**II Oxucu:** Luis Kerroll hələ kollecdə oxuduğu zamanlardan ədəbiyyat sahəsinə maraq göstərmiş və kiçikhəcmli şeir və hekayələr yazmışdır. 1854-cü ildən onun belə yazıları bir çox ciddi mətbuat orqanlarında dərc olunmağa başlayır.

**Kitabxanaçı:** Luis Kerrollun ən məşhur əsərləri hansılardır?

**I Oxucu:** Luis Kerrollun ən məşhur əsərləri 1864-cü ildə yazdığı "Alisa möcüzələr ölkəsində" və həmin əsərin ikinci hissəsi kimi 1871-ci ildə oxuculara təqdim olunan "Alisa güzgü arxasında" əsəridir.

**Kitabxanaçı:** Bu əsərlərin yazılmasının tarixçəsi necə olmuşdur?

**II Oxucu:** 1856-cı ildə Kerrollun işlədiyi kollecə yeni dekan təyin olunur. Henri Liddell adlı bu dekan öz xanımı və dörd uşağını da özü ilə gətirir. Bu uşaqların içərisində Alisa adlı dörd yaşlı qızcığaz da var idi. Dekanın ailəsi ilə dostlaşan Luis Kerrol tez-tez onun uşaqları ilə birgə gəzintiyə çıxırdı. Belə qayıqla gəzintilər zamanı o, uşaqlar üçün nağıllar uydurub danışardı. Növbəti gəzintilərin birində yazıçı "Alisa möcüzələr ölkəsində" nağılını danışır. Nağıl Alisanın çox xoşuna gəlir və onu yazıya köçürərək özünə bağışlamasını yazıçıdan xahiş edir. Beləcə bu məşhur əsər yaranır, tezliklə nəşr olunur və nəşr olunduğu gündən də uşaq ədəbiyyatının klassikasına çevrilir. Qeyd etdiyimiz kimi, 1871-ci ildə nağılın ikinci hissəsi – "Alisa güzgü arxasında" əsəri də oxuculara təqdim olunur.

**Kitabxanaçı:** Yazıçının başqa hansı əsərlərinin adlarını çəkə bilərsiniz?

**I Oxucu:** "Snark ovu" fantastik povesti, "Silviya və Bruno", "Gecəyarı tapşırıqları", "Düyünlərin əhvalatı", "Tısbağa Axillə nə dedi", "Allen Braun və Karr", "Evklid və onun müasir rəqibləri" və s. əsərləri.

**Kitabxanaçı:** Görürəm ki, görkəmli uşaq yazıçısı Luis Kerrollun həyatı və yaradıcılğı haqqında kifayət qədər məlumata maliksiniz. Bu yazıçının əsərlərini oxumayanlara da onları oxumağı tövsiyə edirəm.

Yazıçının əsərləri çox rəngarəng səhnələrlə, qeyri-adi, fantastik personajlarla zəngindir. Kerrollun əsərlərinin müxtəlif illərdə müxtəlif dillərdəki nəşrlərinə çox tanınmış illüstratorlar şəkillər çəkmişlər. Kitabxanada görkəmli uşaq yazıçısı Luis Kerrollun əsərləri əsasında rəsm müsabiqəsinin təşkil olunması da məqsədəuyğun olardı.

## Ədəbiyyat siyahısı

Azərbaycan dilində

**Kerol, L**. Alisa möcüzələr ölkəsində : nağıl / rəs. F.Kərimov. - Bakı : Çaşıoğlu, 2008. - 16 s.

**Kerol, L.** Alisa möcüzələr ölkəsində : nağıl / tərc. ed. A.İbrahimov ; M.Əfəndiyev ; C.Nağıyev. - Təkrar nəşr. - Bakı : Öndər, 2005. - 448 s. - ( Dünya uşaq ədəbiyyatı).

Rus dilində:

**Кэрролл, Л.** Алиса в Зазеркалье / худ. Дж. Тенниел ; И. и А. Чукавины ; пересказ Л.Л.Яхнин. - М. : Астрель, 2009. - 219 с.

**Керролл, Л.** Алиса в Стране чудес : сказочная повесть / ред. О.В.Трифонова. - М. : Астрель, 2007. - 366 с.

**Кэрролл, Л.** Приключения Алисы в Стране чудес / ил. Л.Кэрролл ; ред. К.Кутловская ; ред., авт. пред. К.Бунтман ; пер. с англ. Н.М.Демурова ; худож. Дж. Тенниел, В. Челак. - М. : Лабиринт Пресс, 2014. - 107 с.

**Кэрролл, Л.** Алиса в стране чудес : пересказ с английского Бориса Заходера / ред. А.Алир ; худож. Б.Пушкарев. - М. : Самовар, 2006. -143 с.

**Кэрролл, Л.** Алиса в Стране чудес / ред. А. Алир ; худ. Б.С.Пушкарев. - М. : Самовар, 2009. - 140 с.

**Кэрролл, Л.** Алиса в Стране чудес : сказочная повесть / ред. И.Л.Шишкова, Н.Н.Хотулева ; худ. И.Олейникова. - М. : АСТ ; М. : Астрель ; Владимир : ВКТ, 2011. - 238 с.

**Кэрролл, Л.** Приключения Алисы в Стране чудес : сказка / ред. С.Дроздова ; худ. А.А.Кошкина. - М. : Детская литература, 1985. - 542 с.
**Кэррол, Л.** Приключения Алисы в Стране чудес / ред. Н.Г.Семенова ; худ. А.Шандро. - Краснодар : Книжное издательство, 1990. - 224 с.
**Кэрролл, Л.** Алиса в Зазеркалье / пересказ Л.Л.Яхнин ; худ. Дж. Тенниел. - М. : Эксмо, 2015. - 160 с.

**Möcüzələr ölkəsinin yaradıcısı**

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır:14. 03 .2017
Tirajı:100
Pulsuz